AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR SAHƏNİN LİBERALLIQ-DİRİJİSTLİK SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5312.01 - "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: Lalə Allahverdi qızı Cabbarlı

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

BAKI – 2026

Dissertasiya işi Azərbaycan Respublikası Aqrar Tədqiqatlar Mərkəzinin "Ərzaq təhlükəsizliyi və aqrar sahədə dövlət dəstəyi siyasəti" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, dosent
Allahyar Niyaz oğlu Muradov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
Rahim Fərahim oğlu Sadıqov

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Fərid Fikrət oğlu Babayev

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Vüsalə Mirsəməd qızı Abbasova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
Nazim Müzəffər oğlu İmanov

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru
Sevda Məmməd qızı Seyidova

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
Tərbiz Nəsib oğlu Əliyev

TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dövlətin ümumilikdə iqtisadiyyatı və onun alt sahələrini effektiv şəkildə tənzimlənməsi inkişafın və sosial rifahın təmin olunması üçün mühüm şərtdir. Dövlət tənzimlənməsinin strateji əhəmiyyət daşıdığı əsas istiqamətlərdən biri də aqrar sahədir. Müasir ədəbiyyatda və beynəlxalq təşkilatların təsnifatında "aqrar sahə" (*agricultural sector*) anlayışına dar və geniş mənada baxılır. Dar mənada bu anlayış bitkiçilik, heyvandarlıq, meşə təsərrüfatı, balıqçılıq və bu fəaliyyətlərə xidmət edən sahələri əhatə edir. Geniş mənada isə aqroemal sənayesi də aqrar sahəyə aid edilir.

BMT-nin İqtisadi fəaliyyət növlərinin beynəlxalq sənaye təsnifatında (ISIC)[1], Dünya Bankının[2] və ƏKTT-nin (FAO)[3], eləcə də Azərbaycan Dövlət Statistika Komitəsinin[4] (DSK) izahlarında aqrar sahəyə dar mənada yanaşılır. Bu tədqiqatda aqrar sahəyə dar mənada baxılmış, təhlil və qiymətləndirmələr bu yanaşmaya əsaslanaraq aparılmışdır.

Son illərdə əhali artımı, hərbi münaqişələr, qaçqınlar və iqlim dəyişmələri, ərzaq təminatına təhdidlər aqrar sahənin tənzimlənməsinin əhəmiyyətini daha da artırmışdır. Çünki ərzaq təminatı bütün ölkələr üçün strateji əhəmiyyət daşıyır. Bu amil aqrar sahəyə dövlətin aktiv stimullaşdırıcı müdaxiləsini aktuallaşdırır.

Azərbaycan dövləti də aqrar sahənin sosial-iqtisadi əhəmiyyətini nəzərə alaraq, bu sahənin inkişafına müxtəlif alətlərlə (vergi güzəşti, subsidiya və s.) stimullaşdırıcı müdaxilə edir və istehsala dəstək verir. Son illərdə qəbul edilən bir sıra proqram və strategiyalarda: *Strateji Yol Xəritələri*, "*Azərbaycan 2030" Milli Prioritetləri", "2022-2026-cı illər sosial-iqtisadi inkişaf Strategiyası" və "2026-2030-cu illər üçün kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalına dair Dövlət Proqramı"* aqrar sahənin inkişafına

[1] European Commission, Directorate-General for Communication. Agriculture: A Partnership Between Europe and Farmers. Publications Office of the European Union, 2017.
[2]World Bank. Agriculture and Food Overview. https://ida.worldbank.org/en/ topics/ results/agriculture
[3] FAO Action Plan 2022–2025 for the Implementation of the FAO Strategy on Climate Change. Rome: FAO, 2023. https://doi.org/10.4060/cc7014en
[4] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/agriculture/az/agriculture.doc

dəstək tədbirləri yer alır. Bu tədbirlər aqrar sahənin inkişafına və özünütəminetmə səviyyəsinin yüksəlməsinə töhfə versə də, infrastruktur, texniki-texnoloji təminat və məhsuldarlıqla bağlı problemlər öz aktuallığını saxlayır. Bu problemlər bir çox hallarda dövlət dəstəyinin təsirini zəiflədir. Aqrar sahəyə dövlət dəstəyinin səmərəliliyin yüksəldilməsi, iqtisadi və qeyri-iqtisadi amillərlə əlaqəsinin müqayisəli qiymətləndirilməsi dövlət müdaxiləsinin dərinliyinin (liberallıq-dirijistlik) kəmiyyətcə ölçülməsini aktuallaşdırır.

Dünya təcrübəsi və statistik ölçmələr göstərir ki, aqrar sahəyə dövlət müdaxiləsində (dəstək və təşviq tədbirlərində) əsas məsələ onun dərinliyi deyil, qarşıya qoyulan məqsədlərə nə dərəcədə nail olunmasıdır. Müdaxilənin liberallıq-dirijistlik səviyyəsinin ölçməsi dövlət dəstəyinin nəticələrini qiymətləndirməyə, aqrar sahədə daha doğru siyasət qərarlarının qəbuluna imkan verə bilər. Bu baxımdan dissertasiyanın mövzusu aktual hesab olunur.

Bildiyimiz kimi, iqtisadiyyatın və onun sahələrinin dövlət tənzimlənməsi problemi uzun illərdir iqtisad elmində müzakirə olunur. İqtisadiyyatın və onun alt-sahələrinin dövlət tənzimlənməsi problemi Azərbaycan alimlərindən A.F.Musayev, A.N.Muradov, Ə.X.Nuriyev, F.F.Mustafayev, H.P.Allahverdiyev, İ.H.Əliyev, K.S.Qafarov, L.A.Allahverdiyeva, N.Müzəffərli (İmanov), R.S.Abdullayeva, Ş.M.Muradov, T.H.Hüseynov, Z.Ə.Səmədzadə və bir çoxları tərəfindən araşdırılmışdır. Aqrar sahənin tənzimlənməsi ilə bağlı A.H.Vəliyev, B.X.Ataşov, E.R.İbrahimov, E.A.Quliyev, F.F.Babayev, F.F.Fikrətzadə, F.V.Quliyev, F.V.Rüstəmov, M.M.Hüseynov, N.C.Qafarov, R.Ə.Balayev, R.Z.Hüseyn, R.K.İsgəndərov, R.M.Rüstəmov, R.P.Sultanova, S.V.Salahov, Ş.N.Yusifzadə, V.M.Abbasova, V.İ.İsmayılov, V.Ə.Qasımlı, Y.M.Sadıqov və başqaları tərəfindən nəzəri və praktik əhəmiyyətli tədqiqatlar aparılmışdır.

Xarici tədqiqatçılardan A.Smit, C.Keyns, E.Alimkulova, F.Quesnay, G.Alons, G.Meijerink, H.Ritçe, K.Marks, L.Cui, P.Feindt, Q.He, R.S.Miller, R.Vos, S.Singh, T.Bhandari, V.Kenton, Y.Zhang və başqaları iqtisadiyyatın və aqrar sahənin tənzimlənməsi ilə bağlı əhəmiyyətli nəzəri müddəalar irəli sürmüşlər. Bu araşdırmaların

nəzəri və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək olar ki, bu tədqiqatlarda iqtisadiyyata və aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi kəmiyyətcə ölçülməmişdir. İqtisadiyyata dövlət müdaxiləsi səviyyəsi prof.N.Müzəffərli tərəfindən ölçülmüşdür. Bu tədqiqatda aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsi eyni yanaşma ilə ölçülmüş və müqayisəli təhlillər aparılmışdır.

Tədqiqatın obyekti Azərbaycan Respublikasında aqrar sahənin dövlət tənzimlənməsi prosesidir.

Tədqiqatın predmeti isə aqrar sahəyə dövlətin birbaşa və dolayı müdaxiləsi, bununla bağlı iqtisadi hadisə və münasibətlərin nəzəri, metodoloji və praktiki məsələləri təşkil edir.

Tədqiqatın məqsədi və vəzifələri. Tədqiqatın məqsədi aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsini ölçmək, mövcud vəziyyəti qiymətləndirmək, müdaxilə və nəticələr arasında uyğunsuzluğu müəyyənləşdirmək, müdaxilənin nəticəliliyinin yüksəldilməsi üçün təklif və tövsiyələr hazırlamaqdır.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– liberal və dirijist tənzimləmənin üstün və zəif tərəflərinin nəzəri əsaslarını sistemləşdirmək, dövlət müdaxiləsi və dövlət dəstəyi, anlayışlarına aydınlıq gətirmək;

– aqrar sahəyə dövlət müdaxiləsinin zəruriliyini şərtləndirən amillərin nəzəri aspektlərini tədqiq etmək və qabaqcıl ölkələrin təcrübəsini öyrənmək;

– müstəqillik dövründə Azərbaycanda aqrar sahədə aparılan institutsional transformasiyanı və islahatların nəticələrini qiymətləndirmək;

– aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsini ölçmək və ölkələrarası müqayisə aparmaq, bir sıra makroiqtisadi və sahə göstəriciləri arasında qarşılıqlı əlaqəsini qiymətləndirmək;

– Azərbaycanda aqrar sahəyə dövlətin birbaşa və dolayı dəstəyinin həcmini müəyyən etmək;

– Aqrar sahəyə dövlət müdaxiləsi ilə ərzaq təhlükəsizliyi və özünü təminetmə arasında əlaqəni qiymətləndirmək;

– tənzimləmə və dəstək mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələr hazırlamaq.

Tədqiqat metodları. Tədqiqatda analiz və sintez, induksiya və deduksiya, müqayisəli və sistemli təhlil, statistik və korrelyasiya təhlili, eləcə də ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Müxtəlif ölçü vahidləri ilə ifadə olunan göstəricilərin müqayisə olunan formaya gətirilməsi üçün normallaşdırma üsulu tətbiq olunmuşdur.

Müdafiəyə çıxarılan əsas müddəalar.

- Dövlət tənzimlənməsi iqtisadi proseslərə hüquqi, inzibati, iqtisadi və institusional vasitələrlə məqsədyönlü təsir göstərən geniş sistemdir. Bu sistem çərçivəsində dövlət müdaxiləsi həm məhdudlaşdırıcı, həm də stimullaşdırıcı xarakter daşıyır.
- Aqrar sahənin təbii-iqlim və mövsümi xüsusiyyətləri, istehsal və logistika riskləri, ərzaq təhlükəsizliyində rolu, kənd əhalisinin rifahına təsiri bu sahəyə dövlətin stimullaşdırıcı müdaxiləsini zəruri edir.
- Azərbaycanda aqrar islahatlar nəticəsində dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti, müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü və vergi güzəştləri ilə səciyyələnən liberal yönümlü qarışıq model formalaşmışdır.
- ASLDİ nəticələrinə əsasən, Azərbaycanda aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi qarışıq orta modeldən qismən liberal modelə doğru dəyişmiş və bu dinamika qlobal liberallaşma meyli ilə uzlaşmışdır.
- ASLDİ ilə aqrar istehsal arasında zəif, kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri indeksi ilə müsbət orta, kənd təsərrüfatında məşğulluq və əsas kapitala investisiyalarla isə güclü mənfi statistik əlaqə müşahidə olunur. Aqrar istehsalla əlaqənin zəifliyi infrastruktur, texniki-texnoloji təminat və digər amillərlə şərtlənir.
- Təqribi hesablamalara görə aqrar sahədə ümumi məhsul buraxılışının hər manatına düşən dövlət dəstəyinin əsas hissəsi vergi güzəştləri hesabına formalaşmışdır.
- Aqrar sahənin liberallıq-dirijistlik səviyyəsi ilə ərzaq təhlükəsizliyi arasında zəif mənfi əlaqə mövcuddur. Yəni müdaxilənin artması ərzaq təhlükəsizliyinin yaxşılaşması meylini artırır.

Tədqiqatın elmi yeniliyi. Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– Dövlət tənzimlənməsinin liberal və dirijist modelləri, eləcə də dövlət müdaxiləsinin zəruriliyini şərtləndirən amillər sistemləşdirilmiş, müdaxilə alətləri təsir istiqamətinə görə məhdudlaşdırıcı (vergilər və rüsumlar) və stimullaşdırıcı (dövlət xərcləri və vergi güzəştləri) olması, onların iqtisadi proseslərə təsir mexanizmləri əsaslandırılmışdır.

– Aqrar sahəyə dövlət müdaxiləsini zəruri edən təbii-iqlim, iqtisadi və sosial amillər və onların qarşılıqlı əlaqələri sistemləşdirilmiş, müdaxilənin səviyyəsinin ölkələrin sosial-iqtisadi şəraitindən asılılığı əsaslandırılmışdır.

– Azərbaycanda aqrar sahənin institutsional transformasiyası müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü, kənd təsərrüfatı torpaqlarında dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarının paralel mövcudluğu, habelə vergi güzəştləri və subsidiyalar nəzərə alınmaqla qiymətləndirilmiş, hazırda tənzimləmə sisteminin liberal yönümlü qarışıq model olduğu əsaslandırılmışdır.

– İlk dəfə olaraq aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik indeksi (ASLDİ) və kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi (KTDDLDİ) iki metodologiya əsasında hesablanmış, ölkələr müdaxilə dərəcəsinə görə qruplaşdırılmış və 0–1 şkalası üzrə linqvistik təsnifat qurulmuşdur. Təhlil dövründə Azərbaycanın qarışıq orta modeldən qismən liberal modelə keçidi empirik əsaslandırılmışdır.

– ASLDİ ilə aqrar istehsal, istehsalçı qiymətləri indeksi, məşğulluq, investisiya arasındakı asılılıqlar qiymətləndirilmiş, onların istiqamət və güc baxımından fərqliliyi müəyyən edilmişdir.

– Aqrar sahəyə birbaşa büdcə dəstəyi və vergi güzəştləri formasında dolayı dəstəyin təxmini həcmi hesablanmış, ÜMB-nin hər manatına 22,9–26,8 qəpik ümumi dəstək düşdüyü və onun əsas hissəsinin (15,8 qəpik) vergi güzəştlərindən formalaşdığı müəyyən edilmişdir.

– Azərbaycanda ASLDİ ilə Qlobal ərzaq təhlükəsizliyi indeksi arasında müsbət güclü əlaqə olduğu müəyyən edilmiş, Azərbaycanda özünütəminetmə səviyyəsinin məhsul qrupları üzrə fərqlənməsi əsasında ərzaq təhlükəsizliyinin yalnız müdaxilənin miqyası ilə izah olunmadığı əsaslandırılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Əldə olunmuş nəticələr və təkliflər aqrar sahənin, xüsusilə kənd təsərrüfatının dövlət tənzimlənməsinin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsində, dövlət proqramlarının təkmilləşdirilməsində və dəstəyin səmərəliliyinin yüksəldilməsində istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Tədqiqat mövzusu ilə bağlı Azərbaycanda, Macarıstanda, Türkiyədə, İtaliyada, İspaniyada, Fransada və Özbəkistanda keçirilən konfranslarda məruzələr edilmişdir. Belə ki, 10 mart 2020-ci ildə Gəncə şəhərində keçirilən "*Kənd Təsərrüfatında Kooperasiyanın Mövcud Vəziyyəti və İnkişaf Perspektivləri*" mövzusunda Respublika elmi-praktik konfransda, " 31 May 2021-ci ildə Bakıda keçirilən "*Pandemiyanın Dünya Ölkələrinin Sosial-İqtisadi İnkişafına Təsiri Problemləri*" mövzusunda Beynəlxalq elmi-praktik konfransda, 4-6 Noyabr 2022-ci ildə İzmirdə keçirilən "*III Uluslararası beşeri bilimler kongresi*"ndə, 22-25 iyun, 2023-cü ildə Bakıda keçirilən "*İqtisadiyyat və İdarəetmə sahəsində tədqiqatçıların V beynəlxalq elmi konfransı*"nda, 6-8 Mart, 2024-cü ildə Özbəkistanda keçirilən "*III Uluslararası İpek Yolu Bilimsel Araşdırmalar Kongresi*" ndə, 29-30 iyul 2024-cü ildə Macarıstanda keçirilən "*Agricultural Sciences and Economics (ICASE-2024)*" beynəlxalq konfransda məruzələrlə çıxış edilmişdir.

Dissertasiya işinin mövzusu üzrə 16 məqalə və tezis nəşr edilmişdir. Bunlardan 8-i xarici jurnallarda, o cümlədən 2-si SCOPUS elmi bazasında dərc edilmişdir.

Dissertasiya işi Azərbaycan Respublikası Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

Dissertasiyanın həcmi. Dissertasiya işi giriş, üç fəsil, 9 yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. İşin ümumi həcmi 212198 işarə həcmindədir. Giriş 12116, birinci fəsil 6425 işarə, ikinci fəsil 79257, üçüncü fəsildə 47473, nəticə və təkliflər 11020 işarədən ibarətdir. Burada 3 şəkil, 26 qrafik, 22 əsas cədvəl, 7 əlavə cədvəl verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, türk, rus və ingilis dillərində olan 171 mənbədən istifadə olunmuşdur

DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

Giriş

I FƏSİL. AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

1.1. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-konseptual əsasları

1.2. Aqrar sahəyə dövlət müdaxiləsinin vacibliyini səciyyələndirən amillərin nəzəri əsasları

1.3. Dünya təcrübəsində aqrar sahənin dövlət tənzimlənməsi mexanizmləri

II FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İSLAHATLAR: MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ DÖVLƏT MÜDAXİLƏSİ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Aqrar sahədə aparılan liberal yönümlü institutsional transformasiya prosesinin qiymətləndirilməsi

2.2. Aqrar sahədə dövlət müdaxiləsinin ölçülməsi: metodologiya, ölkələrarası müqayisəli təhlil və qiymətləndirmə

2.3. Azərbaycanda aqrar sahənin iqtisadi təhlili və ASLDİ ilə qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi

2.4. Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi səviyyəsinin qiymətləndirilməsi

III FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏNİN DÖVLƏT DƏSTƏYİNİN İQTİSADİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

3.1. Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətləri

3.2. Aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi yolları

Nəticə və təkliflər

İstifadə edilmiş ədəbiyyat

Əlavələr

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, istifadə olunan metodlar, müdafiyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilat, quruluşu və ümumi həcmi barədə məlumatlar təqdim olunmuşdur.

Dissertasiyanın **"Aqrar sahənin dövlət tənzimlənməsinin nəzəri metodoloji əsasları"** adlı birinci fəslində iqtisadiyyatın dövlət tənzimlənməsinə liberal və dirijist yanaşmaların konseptual əsasları tədqiq edilmiş, dövlət müdaxiləsi, dövlət tənzimlənməsi və dövlət dəstəyi anlayışlarına aydınlıq gətirilmiş, liberal və dirijist iqtisadiyyatların üstün və zəif tərəfləri nəzəri cəhətdən əsaslandırılmış, aqrar sahə dövlət müdaxiləsinin vacibliyini şərtləndirən amillər və onların müdaxilənin artırılmasına təsiri, aqrar sahənin dövlət tənzimlənməsi ilə bağlı qabaqcıl ölkələrin təcrübəsi öyrənilmişdir. Aparılan nəzəri araşdırmalar əsasında aşağıdakı müddəa və yeniliklər irəli sürülmüşdür.

Müddəa 1: *Dövlət tənzimlənməsi iqtisadi proseslərə hüquqi, inzibati, iqtisadi və institusional vasitələrlə məqsədyönlü təsir göstərən geniş sistemdir. Bu sistem çərçivəsində dövlət müdaxiləsi həm məhdudlaşdırıcı, həm də stimullaşdırıcı xarakter daşıyır.*

Elmi yenilik 1: *Dövlət tənzimlənməsinin liberal və dirijist modelləri, eləcə də dövlət müdaxiləsinin zəruriliyini şərtləndirən amillər sistemləşdirilmiş, müdaxilə alətləri təsir istiqamətinə görə məhdudlaşdırıcı (vergilər və rüsumlar) və stimullaşdırıcı (dövlət xərcləri və vergi güzəştləri) olması, onların iqtisadi proseslərə təsir mexanizmləri əsaslandırılmışdır.*

Əsaslandırma: Dövlət tənzimlənməsi iqtisadi proseslərə hüquqi, inzibati, iqtisadi və institusional vasitələrlə məqsədyönlü təsiri ifadə edən geniş anlayışdır. İqtisadiyyata dövlət müdaxiləsinin miqyası və sərhədləri liberal və dirijist yanaşmalarla izah olunur. Liberal yanaşma xüsusi mülkiyyətə, rəqabətə, iqtisadi azadlığa və bazarın özünütənzimləmə imkanlarına üstünlük verir. Bununla belə, bazar mexanizmlərinin bəzən sosial-iqtisadi problemləri həll etməyə qadir olmadığı fikri irəli sürülür. Dirijist yanaşmada isə bazar uğursuzluqlarının, böh-

ranların, bərabərsizlik və məşğulluq problemlərinin aradan qaldırılmasında, sosial öhdəliklərin icrasında dövlətin fəal rolu müdafiə olunur.

Dövlət tənzimlənməsinin səmərəliliyi yalnız müdaxilənin miqyasından asılı deyil, burada tənzimləmənin məqsədi, seçilən alətlər, onların tətbiq mexanizmləri xüsusi əhəmiyyət daşıyır.

Dövlətlər vergilər, rüsumlar, lisenziyalaşdırma, kvotalar və məcburi standartlar vasitəsilə iqtisadi subyektlərə məhdudlaşdırıcı dövlət xərcləri, subsidiyalar, qrantlar və vergi güzəştləri kimi alətlərlə iqtisadi aktivliyin yüksəlməsinə stimullaşdırıcı təsir göstərirlər. Lakin hədəfsiz dəstək rəqabətə və resurs bölgüsünə mənfi təsir göstərə, həddindən artıq vergi yükü isə istehsal və investisiya təşviqlərini zəiflədə bilər. Bu baxımdan balanslaşdırılmış birbaşa və dolayı müdaxilə daha səmərəli hesab olunur.

İnzibati tələblər və məhdudiyyətlər birbaşa, subsidiyalar, güzəştli kreditlər, lizinq, sığorta və investisiya təşviqləri kimi iqtisadi stimullar isə dolayı təsir vasitələri kimi çıxış edir.

Müddəa 2: *Aqrar sahənin təbii-iqlim və mövsümi xüsusiyyətləri, istehsal və logistika riskləri, ərzaq təhlükəsizliyində rolu, kənd əhalisinin rifahına təsiri bu sahəyə dövlətin stimullaşdırıcı müdaxiləsini zəruri edir.*

Elmi yenilik 2: *Aqrar sahəyə müdaxiləni zəruri edən təbii-iqlim, iqtisadi və sosial amillər və onların qarşılıqlı əlaqələri sistemləşdirilmiş, müdaxilənin səviyyəsinin ölkələrin sosial-iqtisadi şəraitindən asılılığı əsaslandırılmışdır.*

Əsaslandırma: Aqrar sahə, xüsusilə inkişaf etməkdə olan və aşağı gəlirli ölkələrdə əhalinin mühüm bir hissəsi üçün əsas məşğulluq və gəlir mənbəyi olaraq qalır. Kənd təsərrüfatı bu ölkələrdə yalnız ərzaq təminatının deyil, həm də sosial sabitliyin və yoxsulluğun azaldılmasının əsas dayaqlarından biri hesab olunur. Bir çox ölkələrdə kənd təsərrüfatı əvvəlki kimi iqtisadiyyatın aparıcı dayaqlarından biri hesab edilməsə də, ərzaq təhlükəsizliyi, məşğulluq, regional inkişaf və sosial sabitlik baxımından strateji əhəmiyyətini qoruyub saxlamaqdadır. Bu səbəbdən dövlətlər aqrar sahəni dəstəkləmək üçün subsidiyalar, texnoloji modernləşmə təşviqləri, innovasiya proqramları, bazar tənzim-

ləmə mexanizmləri və institutsional islahatlar kimi müxtəlif vasitələrdən istifadə etməyə davam edirlər.

Dünya təcrübəsi aqrar sahəyə müdaxilə və dəstəyin universal modelinin səmərəli olmadığını göstərir. Müdaxilənin nəticəliliyi inkişaf səviyyəsindən, coğrafi yerləşmədən, təbii-iqlim şəraitindən, institutların fəaliyyətindən, mühitdən və digər sosial prioritetlərdən asılı olaraq dəyişə bilər.


Müddəa 3: *Azərbaycanda aqrar islahatlar nəticəsində dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti, müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü və vergi güzəştləri ilə səciyyələnən liberal yönümlü qarışıq model formalaşmışdır.*

Elmi yenilik 3: *Azərbaycanda aqrar sahənin institutsional transformasiyası müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü, kənd təsərrüfatı torpaqlarında dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarının paralel mövcudluğu, habelə vergi güzəştləri və subsidiyalar nəzərə alınmaqla qiymətləndirilmiş, hazırda tənzimləmə sisteminin liberal yönümlü qarışıq model olduğu əsaslandırılmışdır.*

Əsaslandırma: Müstəqilliyin ilk illərində aqrar bölmə böhran, istehsalın azalması, idarəetmədə qeyri-müəyyənlik və təsərrüfat əlaqələrinin dağılması ilə səciyyələnirdi. İslahatlar iqtisadi səmərəliliyin bərpasına, kənd yerlərində sosial gərginliyin azaldılmasına, məşğulluğun və istehsalın davamlılığının qorunmasına yönəlmişdi.

Aqrar islahatlar nəticəsində kolxoz-sovxoz sistemi ləğv edilmiş, torpaq və təsərrüfat münasibətləri yenidən qurularaq xüsusi mülkiyyətə və fərdi təsərrüfatçılığa əsaslanan aqrar struktur formalaşdırılmışdır.1995-2001-ci illərdə 838,2 min ailəyə torpaq üzərində mülkiyyət sahibliyi sənədi verildi. DSK-nın məlumatına görə, 2024-cü ildə kənd təsərrüfatına yararlı torpaqların 41,2%-i dövlət, 23,8%-i bələdiyyə, 34,9%-i xüsusi mülkiyyətdə olmuşdur. Bu bölgü xüsusi mülkiyyətlə yanaşı dövlət və bələdiyyə torpaqlarının da əhəmiyyətli payını göstərir. Onu da qeyd edək ki, meşə təsərrüfatı və balıqçılıqda dövlət mülkiyyəti mütləq üstünlüyə malikdir. Meşələr bütövlükdə dövlət mülkiyyətindədir. Balıqçılıq və akvakultura sahəsində yetişdirilən məhsullar isə xüsusi mülkiyyətə məxsus ola bilər.


Aqrar islahatlar nəticəsində kənd təsərrüfatı müəssisələrinin ümumi sayında xüsusi sektorun payı artmışdır. 1993-cü ildə bu göstərici 5,3%, 1995-ci ildə 12,6%, 1997-ci ildə 58,5%, 1999-cu ildə isə 84,4% olmuşdur. 2000-2024-cü illərdə isə 86%-dən 91%-ə yüksəlmişdir (Qrafik 1).



Qrafik 1. Kənd təsərrüfatı müəssisələrinin ümumi sayında dövlət və xüsusi mülkiyyətli müəssisələrin xüsusi çəkisi, %
Qeyd. Qrafik DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2000-2024-cü illərdə aqrar sahədə hüquqi şəxs yaratmadan fərdi sahibkar təsərrüfatlarının sayı 77,3% azalaraq 3248-dən 736-ya enmişdir. Bu azalma fərdi sahibkarların fəaliyyətini dayandırması, hüquqi statusunun dəyişməsi, habelə statistik uçot bazasının yenilənməsi ilə bağlı ola bilər.

Aqrar sahədə istehsal olunan ÜDM-in 1995-ci ildə 61,5%-i, 2024-cü ildə 99,8%-i qeyri-dövlət bölməsinin payına düşmüşdür (Qrafik 2). Onu da qeyd edək ki, 1998-2025-ci illərdə aqrar sahədə istehsal olunan ÜDM-in 95-99%-i kənd təsərrüfatının, 1-4%-i isə meşə təsərrüfatı və balıqçılığın payına düşmüşdür.



Qrafik 2. Ölkə və kənd təsərrüfatı üzrə ÜDM-də qeyri-dövlət bölməsinin payı, müvafiq illərin cari qiymətləri əsasında, faizlə

Qeyd. Qrafik DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Aqrar sahə liberal yönümlü islahatlarla yanaşı dövlət subsidiyaları, vergi və gömrük güzəştləri, güzəştli kreditlər, texniki-texnoloji dəstək, strategiya və proqramlar vasitəsilə tənzimləyici rolunu qorumuşdur. Buna görə Azərbaycanda aqrar sahəni özəl mülkiyyət və sahibkarlığı birləşdirən qarışıq model kimi qiymətləndirmək olar.

Müddəa 4: *ASLDİ nəticələrinə əsasən, Azərbaycanda aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi qarışıq orta modeldən qismən liberal modelə doğru dəyişmiş və bu dinamika qlobal liberallaşma meyli ilə uzlaşmışdır.*

Elmi yenilik 4: *İlk dəfə olaraq aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik indeksi (ASLDİ) və kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi (KTDDLDİ) iki metodologiya əsasında hesablanmış, ölkələr müdaxilə dərəcəsinə görə qruplaşdırılmış və 0-1 şkalası üzrə linqvistik təsnifat qurulmuşdur. Təhlil dövründə Azərbaycanın qarışıq orta modeldən qismən liberal modelə keçidi empirik əsaslandırılmışdır.*

Əsaslandırma: İşdə aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi iki indekslə ölçülmüşdür: Kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi (KTDDLDİ) və Aqrar sahənin liberallıq-dirijistlik indeksi (ASLDİ).

KTDDLD indeksi İƏİT-in "*Kənd təsərrüfatı siyasətinin monitorinqi və qiymətləndirilməsi*" (Agricultural Policy Monitoring and Evaluation) bazasının məlumatları əsasında hesablanmışdır. Qiymətləndirmə kənd təsərrüfatına ümumi dəstəyin (KTÜD) (Total Support Estimate -TSE) ÜDM-dəki payına əsaslanır. Hesablama 28 ölkə və Aİ üzrə aparılmışdır. KTÜD kənd təsərrüfatını dəstəkləyən siyasətlər nəticəsində aqrar sektora yönələn ümumi transferlərin illik pul dəyəri üzrə hesablanmış kompozit göstəricidir. Burada 31 göstəricidən 21-i istehsalçılara, 3-ü istehlakçılara, 7-si isə ümumi xidmətlərə dəstəyi əhatə edir.

ASLD indeksi isə 148 ölkə üzrə iki sub-indeks əsasında hesablanmışdır: *Birbaşa dövlət dəstəyi sub-indeksi* (BDDSİ) və *Dolayı dövlət dəstəyi sub-indeksi* (DDDSİ). BDD sub-indeksi aqrar sahəyə dövlət xərclərinin büdcə xərclərində payını, DDD sub-indeksi isə aqrar istehsalçılara tətbiq edilən vergi və gömrük güzəştlərinin bal sistemi ilə qiymətləndirilməsinə əsaslanır.

BDDSİ üzrə məlumatlar BMT-nin ƏKT Təşkilatının korporativ statistik bazasından götürülmüşdür. DDDSİ üçün vahid beynəlxalq baza olmadığından ERNST & YOUNG, ÜTT, BVF-in hesabatlarından və Avropa Komissiyasının vergi məlumatlarından istifadə edilmiş, güzəştlər 5 ballıq şkala ilə qiymətləndirilmişdir. DDD sub-indeksinin hesablanmasında tərs normallaşdırma tətbiq edilmişdir.

Cədvəl 1. Vergi və gömrük rüsumu güzəştlərinin 5 ballıq şkala əsasında ölçülməsi

Bal	Qiymətləndirmənin məzmunu
1	Aqrar sahə üçün xüsusi vergi və gömrük-rüsumu güzəşti tətbiq edilmir.
2	Ayrı-ayrı vergilər, məhsullar və ya təsərrüfat qrupları üzrə məhdud güzəştlər vardır.
3	Bir və ya bir neçə konkret vergidən azadolma tətbiq edilir.
4	Bütün və ya praktiki olaraq bütün daxili vergilər üzrə geniş güzəşt və azadolmalar tətbiq edilir.
5	Daxili vergilər və gömrük rüsumları üzrə birlikdə geniş güzəşt və azadolmalar tətbiq edilir.

Qeyd: Burada 1 dirijist, 5 liberal müdaxiləni ifadə edir. Balların müəyyənləşməsində süni intellektin imkanlarından istifadə edilmişdir.

Hər iki indeks üçün göstəricilər standart normallaşdırma düsturu ilə hesablanmışdır:

$$I_n = (V_i - V_{min}) / (V_{max} - V_{min}) \quad (1)$$

Burada standart normallaşdırmadan fərqli olaraq, maksimum və minimumların fərqinə əmsal tətbiqi ilə simmetrik və asimmetrik genişləndirmə düsturlarla hesablanmışdır:

$$R = X_{max} - X_{min} \quad (2)$$

$$L = X_{min} - \alpha R \quad (3)$$

$$U = X_{max} + \beta R \quad (4)$$

Burada R faktiki maksimum və minimum arasındakı fərq, U və L genişləndirilmiş yuxarı və aşağı sərhədlər, α və β isə genişləndirmə əmsallarıdır. Sərhədlər hər il üzrə deyil, bütün dövrün maksimum və minimum göstəriciləri əsasında müəyyən edilmişdir. Bu, uzunmüddətli dəyişməni müqayisə etməyə imkan verir. Simmetrik metodda α və β - 0,1; asimmetrik metodda minimum üzrə "0", maksimum üzrə "0,1" əmsal götürülmüşdür. Son mərhələdə indeks aşağıdakı düsturla hesablanmışdır:

$$I_n = (V_i - L) / (U - L) \quad (5)$$

I_n normallaşdırılmış göstəricini, V_i isə dəyişənin faktiki qiymətini ifadə edir. Göstəricilər 0-1 intervalına gətirilmişdir. Burada [0] liberal, [1] dirijist nəzəri qütb, [0,5] isə nəzəri orta nöqtədir.

KTDDLDİ üçün simmetrik, ASLDİ üçün isə simmetrik və asimmetrik genişləndirmə tətbiq edilmiş, sub-indekslər müdaxilənin sosial-iqtisadi təsirləri nəzərə alınmaqla çəkiləndirilmişdir. BDD sub-indeksinə 0,40, vergi və gömrük güzəştlərini əks etdirən DDD sub-indeksinə 0,60 çəki verilmiş və ASLDİ hesablanmışdır:

$$ASLDİ_{it} = 0,40 \times BDD_{it} + 0,60 \times DDD_{it}$$

Hər iki indeks üzrə linqvistik təsnifat 0-1 nəzəri intervalını beş bərabər hissəyə bölməklə aparılmışdır.


Cədvəl 2. KTDDLDİ və ASLDİ üçün vahid nəzəri linqvistik intervallar

İnterval	Qrup	İqtisadi məzmun
$0,000 \leq I < 0,200$	Liberal	Dövlət müdaxiləsi çox aşağıdır.
$0,201 \leq I < 0,400$	Qismən liberal	Bazar mexanizmləri üstünlük təşkil edir, dövlət müdaxiləsi aşağıdır.
$0,401 \leq I < 0,600$	Qarışıq orta	Bazar və dövlət mexanizmləri paralel fəaliyyət göstərir.
$0,601 \leq I < 0,800$	Qismən dirijist	Dövlət müdaxiləsi və dəstək yüksəkdir.
$0,801 \leq I \leq 1,000$	Dirijist	Dövlət müdaxiləsi və dəstəyi çox yüksəkdir.

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

KTDDLD İndeksi üzrə nəticə: Bu indeks üzrə liberal və qismən liberal qruplarda düşən ölkə yoxdur. 2000-ci ildə ölkələrin 78,6%-i qismən dirijist, 10,7%-i dirijist, 10,7%-i qarışıq qrupda olmuşdur. 2024-cü ildə qismən dirijist ölkələrin payı 67,9%-ə enmiş, qarışıq qrupun payı 32,1%-ə yüksəlmiş, dirijist qrupda ölkə qeydə alınmamışdır.

2000-2024-cü illərdə 9 ölkə daha liberal qrupa keçmiş, 19 ölkə eyni qrupda qalmış, daha dirijist qrupa keçən olmamışdır. İndeks 24 ölkədə azalmış, 4 ölkədə artmışdır. Bu, müdaxilənin nisbətən zəifləməsini göstərsə də, yüksək dövlət dəstəyinin davam etdiyini təsdiqləyir. Lakin ümumi tendensiya liberal yönə dəyişmədir (Qrafik 3). Ən böyük azalma Türkiyədə qeydə alınmışdır.



Qrafik 3. 2000-ci illə müqayisədə 2024-cü ildə indeks qiymətinin dəyişməsi, bənd

Qeyd: Qrafik İƏİT-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.

2000-2024-cü illərdə KTDDLDİ-nin orta qiymətinin 0,671-dən 0,620-yə enməsi kənd təsərrüfatına dövlət müdaxiləsinin nisbətən liberallaşdığını göstərir.

ASLD indeksi üzrə nəticə: ASLDİ üzrə 148 ölkənin ədədi ortası 2001-ci ildə 0,412, 2024-cü ildə isə 0,364 olmuşdur. Bu müddətdə 0,048 bəndlik azalma liberal istiqamətli dəyişməni göstərir (Cədvəl 3).

Cədvəl 3. ASLD indeksi üzrə bir sıra ölkələrin liberalıq-dirijistlik səviyyəsi

	2024		2001	
	Sıra	**İndeks qiyməti**	**Sıra**	**İndeks qiyməti**
M. Afrika	1	0,685	58	0,443
Tanzaniya	2	0,581	34	0,495
Hindistan	3	0,567	8	0,649
Əlcəzair	4	0,559	25	0,539
Myanma	5	0,555	1	0,711
Nəzəri orta		**0,500**		**0,500**
Türkiyə	16	0,498	88	0,373
Qırğızıstan	29	0,443	19	0,578
Çin	35	0,429	48	0,458
Qazaxıstan	44	0,405	28	0,527
Nisbi orta		**0,397**		**0,444**
Türkmənistan	47	0,392	100	0,348
Rumıniya	49	0,388	83	0,388
Polşa	62	0,373	125	0,280
Finlandiya	63	0,372	81	0,388
Ədədi orta		**0,364**		**0,412**
Rusiya	73	0,360	47	0,460
Sloveniya	78	0,351	144	0,202
Xorvatiya	80	0,347	76	0,405
Litva	90	0,336	92	0,360
Slovakiya	96	0,332	111	0,338
Tacikistan	98	0,330	123	0,281
Estoniya	100	0,326	148	0,178
Moldova	104	0,325	103	0,346
Azərbaycan	**122**	**0,293**	35	0,490
Çexiya	123	0,284	147	0,183
Gürcüstan	125	0,274	96	0,352
Konqo DR	145	0,158	75	0,415
Norveç	146	0,143	145	0,198
Qana	147	0,122	135	0,229
Puerto-Riko	148	0,110	134	0,230

Qeyd. Cədvəl müəllif tərəfindən tərtib edilmişdir

ASLDİ üzrə 148 ölkədən 133-ü nəzəri ortanın liberal, 15-i dirijist tərəfində yerləşmişdir.

Qruplar üzrə dəyişmədə liberal yön daha aydın görünür. 2001-ci ildə ölkələrin 45,3%-i qismən liberal, 41,2%-i qarışıq, 10,8%-i qismən dirijist, 2,7%-i liberal qrupda olmuşdur. 2024-cü ildə qismən liberal qrupun payı 66,2%-ə, liberal qrupun payı 4,1%-ə yüksəlmiş, qarışıq qrup 29,1%-ə, qismən dirijist qrup 0,7%-ə enmiş, dirijist qrupda ölkə

olmamışdır (Cədvəl 4). Burada da ümumi tendensiya liberallaşma yöndədir.

Cədvəl 4. ASLDİ üzrə ölkələrin nəzəri qruplar üzrə bölgüsü

Qrup	2001		2010		2020		2024	
	Ölkə sayı	%	Ölkə sayı	%	Ölkə sayı	%	Ölkə sayı	%
Liberal	4	2,7	9	6,1	8	5,4	6	4,1
Qismən liberal	67	45,3	77	52,0	92	62,2	98	66,2
Qarışıq orta	61	41,2	57	38,5	47	31,8	43	29,1
Qismən dirijist	16	10,8	5	3,4	1	0,7	1	0,7
Dirijist	0	0,0	0	0,0	0	0,0	0	0,0

Mənbə: 148 ölkə üzrə ASLDİ göstəriciləri əsasında müəllif hesablamaları.


Qrafikdən göründüyü kimi, 2001-2024-cü illərdə ölkələrin aqrar sahəyə müdaxiləsi ümumilikdə liberal istiqamətdə dəyişmişdir (Qrafik 4).



Qrafik 4. 2001-2024-cü illərdə ASLDİ-nin liberal və dirişist yöndə dəyişməsi

Azərbaycanda ASLDİ-nin dinamikası üç mərhələdə fərqlənir. 2001 və 2005-ci illərdə indeks 0,490 və 0,489 olmaqla qarışıq orta qrupda idi; göstərici həmin dövrdə sabit qalmışdır.

Azərbaycan. 2024-cü ildə Azərbaycanın ASLDİ-si 0,293 olmaqla nəzəri ortadan 0,207, nisbi ortadan 0,104, 148 ölkənin ədədi ortasından isə 0,071 bənd aşağıdır. Ölkə qismən liberal mövqedədir.



Qrafik 5. Azərbaycan üzrə ASLDİ-nin dəyişmə dinamikası, 2001-2024

Qeyd: Nəzəri orta 0,500 səviyyəsində sabit qəbul edilmişdir. Azərbaycanın 2001–2024-cü illər üzrə illik ASLDİ göstəricilərinin sadə ədədi ortası 0,309 təşkil edir.

Azərbaycanın ASLDİ trayektoriyası xətti deyil, mərhələlidir. 2001-2005-ci illərdə indeks 0,487-0,492 intervalında, 0,500-lük nəzəri ortaya yaxın olmuşdur. Sonra sürətlə azalaraq 2010-cu ildə 0,195-ə, 2013-cü ildə isə minimum 0,181-ə çatmışdır. 2014-cü ildən yüksələrək 2020-ci ildə 0,312 olmuş, 2021-ci ildə 0,243-ə enmiş, 2022-2024-cü illərdə isə 0,288-0,295 intervalında sabitlənmişdir. Son dövrdə dirijist meyl qismən artsa da, 2024-cü il göstəricisi nəzəri ortadan və 2001-2024-cü illərin 0,309-luq orta qiymətindən aşağıdır.

Cədvəl 5. Azərbaycanın ASLDİ üzrə mövqeyi

-	ASLDİ	Qrup	Nəzəri ortadan	Nisbi ortadan	Ədədi ortadan
2001	0,490	Qarışıq orta	-0,010	+0,046	+0,078
2005	0,489	Qarışıq orta	-0,011	+0,063	+0,095
2010	0,195	Liberal	-0,305	-0,212	-0,189
2015	0,196	Liberal	-0,304	-0,231	-0,183
2020	0,312	Qismən liberal	-0,188	-0,051	-0,044
2024	0,293	Qismən liberal	-0,207	-0,104	-0,071

Qeyd. Cədvəl müəllif hesablamaları əsasında tərtib edilmişdir.

Postsovet ölkələri ilə müqayisə Azərbaycan üçün daha uyğun istinad verir. 2024-cü ildə 0,293 indekslə Azərbaycan Gürcüstandan (0,274) sonra müqayisə qrupunun ən liberal mövqelərindədir, göstəricisi Ukrayna (0,310), Moldova (0,325), Tacikistan (0,330), Rusiya (0,360), Ermənistan (0,368), Türkmənistan (0,392), Qazaxıstan (0,405) və Qırğızıstandan (0,443) aşağıdır. 2001-2024-cü illərdə indeksin 0,197 bənd azalması liberal istiqamətli dəyişmənin əhəmiyyətli olduğunu göstərir.

Beləliklə, Azərbaycan uzunmüddətli dövrdə qarışıq orta mövqedən qismən liberal mövqeyə keçmiş, proses isə liberallaşma və nisbi dirijistləşmə mərhələləri ilə müşayiət olunmuşdur.

Müddəa 5: *ASLDİ ilə aqrar istehsal arasında zəif, kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri indeksi ilə müsbət orta, kənd təsərrüfatında məşğulluq və əsas kapitala investisiyalarla isə güclü mənfi statistik əlaqə müşahidə olunur. Aqrar istehsalla əlaqənin zəifliyi infrastruktur, texniki-texnoloji təminat və digər amillərlə şərtlənir.*


Elmi yenilik 5: *ASLDİ ilə aqrar istehsal, istehsalçı qiymətləri indeksi, məşğulluq investisiya arasındakı asılılıqlar qiymətləndirilmiş, onların istiqamət və güc baxımından fərqliliyi müəyyən edilmişdir.*

Əsaslandırma. Aqrar sahədə institusional və iqtisadi islahatlar, idarəetmənin yenilənməsi və dövlət dəstəyi inkişaf imkanlarını genişləndirmişdir. İlkin geriləmədən sonra istehsal, əlavə dəyər, məhsuldarlıq və maliyyə göstəriciləri yaxşılaşmışdır. Buna görə sahəni ÜMB ilə yanaşı ÜDM-də payı, real istehsal, məşğulluq, əmək məhsuldarlığı, qiymətlər, rentabellik və investisiyalar üzrə birlikdə qiymətləndirmək lazımdır.

2000-2024-cü illərdə aqrar sahənin ÜDM-də xüsusi çəkisi 15,9%-dən 5,7%-ə enmişdir. 2024-cü ildə dünya üzrə bu 4,1%, Aİ üzrə 1,6%, İƏİT üzrə 1,4% olmuşdur. Aqrar sahədə adambaşına yaradılan əlavə dəyər 9.3 dəfə artaraq 137,1 manatdan 1270,9 manata yüksəlmişdir.

Aqrar sahənin ÜDM-də payı azalsa da, cari qiymətlərlə ÜMB 2000-ci ildəki 1124 mln. manatdan 2025-ci ildə 14918 mln. manata yüksəlmişdir. Bu dövrdə ən yüksək artım 37,8%-lə 2007-ci ildə, 0,3%-lik azalma isə 2014-cü ildə qeydə alınmışdır.

ÜMB-nin daha davamlı nominal artımı əsasən ASLDİ-nin 0,200–0,300 intervalında olduğu illərə təsadüf etmişdir. Bu, bazar mexanizmlərinin üstünlüyü və müəyyən dövlət dəstəyi şəraitində istehsal artımının uyğunlaşmasına dair ilkin empirik müşahidədir.



Qrafik 6. ASLDİ ilə aqrar sahədə ÜMB, məşğulluq arasında əlaqə

Qeyd: Qrafiklər müəllif tərəfindən tərtib olunub


Qrafik 6-dan göründüyü kimi, ASLDİ ilə ÜBM arasında əlaqə zəif, K/T məşğulların sayı ilə güclü (R^2=0,5277; r≈−0,7300) mənfi əlaqə müşahidə edilir. Başqa sözlə müdaxilənin artması və azalması istehsala təsir göstərmir və bu istehsalın digər amillərdən daha çox asılı olduğunu izah edir. Məşğulluqda isə müdaxilənin artması məşğulluğun azalmasına orta güclü təsir edir.

1999-2024-cü illərdə aqrar sahədə məşğul olanların sayı 1569,6 min nəfərdən 1782,3 min nəfərə yüksəlmiş, ümumi məşğulluqdakı payı isə 41,5%-dən 35,4%-ə enmişdir. Azərbaycanda aqrar sahədə çalışanların ümumi məşğulluqda xüsusi çəkisi dünya (26,1%) və İƏİT ölkələri (4,3%) ilə müqayisədə yüksəkdir.

Dövlət dəstəyi məşğulluğu qorumaqla yanaşı texnoloji yenilənmə vasitəsilə məhsuldarlığı yüksəldə və eyni istehsalı daha az işçi ilə təmin edə bilər.

Dövlətin aqrar sahəyə müdaxiləsini şərtləndirən amillərdən biri də qiymət və investisiya cəlbediciliyidir. Dövlət aqrar sahəyə dəstək verməklə, istehsalçı qiymətlərini aşağı salmaqla bu sahəyə investisiya cəlb etmək siyasəti həyata keçirir. Aparılan qiymətləndirmələr göstərir ki, Azərbaycanın ASLDİ göstəricisi ilə istehsalçı qiymətləri indeksi

arasında müsbət orta əlaqə, əsas kapitala investisiya arasında mənfi orta-güclü əlaqə mövcuddur (Qrafik 7).



Qrafik 7. ASLDİ ilə aqrar sahədə istehsalçı qiymətləri indeksi və ƏKİ arasında əlaqə

Qeyd:Qrafik müəllif tərəfindən tərtib edilmişdir.

İstehsalçı qiymətləri indeksi ilə orta ASLDİ arasında əlaqənin siyasətlə ziddiyyət təşkil etməsi, əslində ümumi inflyasiya səviyyəsindən, enerji daşıyıcılarının qiymətinin yüksəlməsindən, aqrar sahədə istifadə olunan resursların bahalaşmasından qaynaqlanır. Bu da bir çox hallarda məhsuldarlıqda da özünü göstərir.

Aparılan təhlil göstərir ki, Azərbaycanda aqrar sahədə istehsal həcmi, məşğulluq, ƏKİ və istehsalçı qiymətləri ilə dövlət müdaxiləsi arasında əlaqələrə digər amillər (inflyasiya, enerji qiymətləri, resursların bahalaşması, infrastruktur, texniki-texniliji təminat və s.) təsir göstərir.


Müddəa 6: *Təqribi hesablamalara görə aqrar sahədə ümumi məhsul buraxılışının hər manatına düşən birbaşa büdcə dəstəyi və vergi güzəştlərindən ibarət ümumi dəstəyin əsas hissəsi vergi güzəştləri hesabına formalaşmışdır.*

Elmi yenilik 6: *Aqrar sahəyə birbaşa büdcə dəstəyi və vergi güzəştləri formasında dolayı dəstəyin təxmini həcmi ayrıca hesablanmış, ümumi məhsul buraxılışının hər manatına 22,9–26,8 qəpik dəstək düşdüyü və onun əsas hissəsinin (15,8 qəp) vergi güzəştlərindən formalaşdığı müəyyən edilmişdir.*

Əsaslandırma: Azərbaycanda aqrar sahənin tənzimlənməsi birbaşa və dolayı dəstək alətlərini uzlaşdıran qarışıq modelə əsaslanır.

Aqrara sahəyə vergi güzəştləri dolayı dəstəyin əsas hissəsini (60-65%) təşkil edir. Birbaşa dəstəyin mühüm aləti subsidiyalardır. Subsidiyalar ümumi dəstəyin 35-40%-ni təşkil edir.

Ümumilikdə aqrar sahəyə dövlət dəstəyinin həcmi 3.3 dəfə artaraq 963,6 mln manatdan 3158,9 mln manata yüksəlib. Lakin dəstəyin ÜMB-nın hər manatına düşən dəstək ortalama 22,9-26,8 qəpik arasında dəyişib.



Qrafik 8. Azərbaycanda ümumi dövlət dəstəyinin təqribi hesablanmış nəticələri, mln manat

Qeyd. Hesablama müəllif tərəfindən aparılmışdır.


Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi geniş və çoxşaxəli olmaqla subsidiyalar, güzəştli kreditlər, büdcə ayırmaları, texnika və damazlıq heyvanların alınmasına güzəştlər, vergi və gömrük təşviqləri vasitəsilə həyata keçirilir. ASLDİ dinamikası göstərir ki, bu dəstəyin genişlənməsi müəyyən dövrlərdə dirijistlik səviyyəsinin yüksəlməsi ilə müşayiət olunsa da, Azərbaycan 2024-cü ildə 0,293 indeks qiyməti ilə qismən liberal qrupda qalır. Bu səbəbdən aqrar siyasətin xarakteri yüksək dövlət dəstəyi ilə bazar mexanizmlərinin paralel fəaliyyət göstərdiyi, lakin liberal komponentlərin üstün olduğu qarışıq model kimi qiymətləndirilə bilər.

Müddəa 7: Aqrar sahənin liberallıq-dirijistlik səviyyəsi ilə ərzaq təhlükəsizliyi arasında zəif mənfi əlaqə mövcuddur. Yəni müdaxilənin artması ərzaq təhlükəsizliyinin yaxşılaşması meylini artırır.

Elmi yenilik 7: *Azərbaycanda ASLDİ ilə qlobal ərzaq təhlükəsizliyi indeksi arasında müsbət güclü əlaqə olduğu müəyyən edilmiş,*

Azərbaycanda özünütəminetmə səviyyəsinin məhsul qrupları üzrə fərqlənməsi əsasında ərzaq təhlükəsizliyinin yalnız müdaxilənin miqyası ilə izah olunmadığı əsaslandırılmışdır.

Əsaslandırma: Aqrar sahəyə dövlət müdaxiləsini zəruri edən amillərdən biri də ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Hesablanmış ümumi ASLDİ ilə qlobal ərzaq təhlükəsizliyi indeksi (QƏTİ) arasında əlaqə zəif görünsə də Azərbaycanda bu əlaqə yüksəkdir. Azərbaycan üzrə hesablanmış ASLDİ və Azərbaycanın QƏTİ göstəricisi arasında güclü müsbət əlaqənin olduğunu göstərir (R^2=0,6485 və r=0,805). Yəni Azərbaycanda dövlət müdaxiləsinin artması ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərir. Müşahidə illərinin sayının az olması bu nəticəyə təsir göstərə bilər.



Qrafik 9. Azərbaycan üzrə ASLDİ və QƏTİ arasında əlaqə
Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilmişdir.

Ümumilikdə ölkələrarası müqayisə göstərir ki, yüksək ərzaq təhlükəsizliyinə həm liberal, həm də dirijist aqrar modellərdə nail olunur. Qeyd edək ki, Azərbaycan 2022-ci ildə QƏTİ-də 59,8 balla 66-cı yerdə qərarlaşmışdır. Ən yüksək ərzaq təhlükəsizliyi göstəricilərinə malik Finlandiya (83,7 bal), İrlandiya (81,7), Fransa (80,2) və Niderland Krallığında (80,1) liberal yanaşma daha çox üstünlük təşkil edir. Lakin Norveç (80,5), Yaponiya (79,5) və İsveçrə (78,2) kimi yüksək ərzaq təhlükəsizliyinə malik ölkələrdə isə indeksin 0,500-dən yüksək olması daha güclü dövlət müdaxiləsinin mövcudluğunu göstərir. Digər tərəfdən, indeks üzrə daha dirijist mövqedə olan bəzi ölkələrdə ərzaq təhlükəsizliyi göstəricisinin yüksək olmaması da

diqqəti çəkir. Məsələn, Banqladeşdə (54,0; 0,674) dövlət müdaxiləsi nisbətən güclü olsa da, ərzaq təhlükəsizliyi indeksi göstəricisi aşağıdır. Bu hal onu göstərir ki, dirijist müdaxilənin mövcudluğu öz-özlüyündə yüksək ərzaq təhlükəsizliyinə zəmanət vermir, müdaxilənin səmərəliliyi, iqtisadi imkanlar, istehsal potensialı və institusional mexanizmlər də mühüm əhəmiyyət daşıyır.

DSK-nın məlumatına görə Azərbaycanın bitkiçilik məhsulları özünütəminetmə məhsul qrupları üzrə fərqlənir. 2010-2024-cü illərdə dənli bitkilər üzrə 11,9 faiz bəndi artım qeydə alınsa da, hazırda bu göstərici 68,4%-dir və bu da idxaldan asılılığın qaldığını göstərir.

Heyvandarlıqda mənzərə nisbətən yaxşıdır. Yumurta üzrə özünütəminetmə 2024-cü ildə 103,7%, quş əti üzrə göstərici 76,6%, süd və süd məhsulları üzrə 83,9% olmuşdur. Emal olunmuş ərzaq məhsullarında da göstəricilər qeyri-bərabərdir. Təzə çörək, marqarin, meyvə-tərəvəz şirələri, bəzi süd məhsulları, yeməli duz və qazlı sular üzrə özünütəminetmə yüksəkdir, bəzi hallarda isə bu 100%-i keçir. Bu, həmin məhsullarda emal sənayesinin daxili tələbatı ödədiyini göstərir.

Beləliklə, ASLDİ ilə ərzaq təhlükəsizliyi arasındakı əlaqə və özünütəminetmə göstəriciləri dövlət müdaxiləsinin nəticəsinin yalnız miqyasından asılı olmadığını göstərir. Dəstəyin məhsul qrupları üzrə düzgün istiqamətləndirilməsi, məhsuldarlığın artırılması, emal və logistikanın inkişafı, saxlama imkanlarının genişləndirilməsi və strateji məhsullar üzrə dayanıqlı daxili istehsalın təşviqi həlledici rol oynayır.

Nəticə, təklif və tövsiyələr

Tədqiqatın nəticələri

1. Tədqiqatda aqrar sahəyə dövlət müdaxiləsi və onun ölçülməsi, 148 ölkə üzrə meyllər, Azərbaycanın institutsional modeli və müdaxilənin aqrar göstəricilərlə əlaqələri araşdırılmışdır. ASLDİ və KTDDLDİ iki metodologiya əsasında hesablanmış, nəticəliliyin alətlərin məqsədə və ölkə şəraitinə uyğunluğundan da asılı olduğu müəyyən edilmişdir.

2. 2001–2024-cü illərdə 148 ölkədə qismən liberal modelin payı 45,3%-dən 66,2%-ə yüksəlmiş, qarışıq orta və qismən dirijist modellərin payı azalmışdır. Bu liberallaşma meylidir, dəstəyin aradan qalxması deyil. Azərbaycanda ASLDİ qarışıq orta modeldən qismən

liberal modelə keçidi, institusional quruluş isə liberal yönümlü qarışıq modeli göstərir.

3. Azərbaycanda ASLDİ aqrar istehsalla zəif, istehsalçı qiymətləri indeksi ilə müsbət orta, məşğulluq və əsas kapitala investisiyalarla güclü mənfi əlaqəlidir (R^2 müvafiq olaraq 0,5277 və 0,5627). Bu statistik əlaqələr səbəb-nəticəni təsdiqləmir, digər iqtisadi və texnoloji amillər də nəzərə alınmalıdır.

4. Ümumi məhsul buraxılışının hər manatına 22,9–26,8 qəpik dövlət dəstəyi, o cümlədən 15,8 qəpik vergi güzəşti düşür. Ərzaq təhlükəsizliyi ilə müdaxilə səviyyəsi arasında 148 ölkə üzrə zəif mənfi, Azərbaycanda ASLDİ ilə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi arasında güclü müsbət əlaqə (R^2=0,6485) müəyyən edilmişdir. Ərzaq təhlükəsizliyi müdaxilə miqyası ilə yanaşı, özünütəminetmə və digər amillərdən də asılıdır.

Təklif və tövsiyələr

Aqrar siyasətin nəticəliliyinin artırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi məqsədəuyğun hesab olunur:

1. **Dövlət müdaxiləsinin mövqeyinin müəyyənləşdirilməsi.** Azərbaycanın qismən liberal istiqamətə uyğun mövqeyini qoruması məqsədəuyğun olardı. Bununla yanaşı, müdaxilənin səviyyəsi üçün indeksin özünü hədəfə çevirməkdənsə, dəstəyin ərzaq təhlükəsizliyi, istehsal riskləri və ümumi xidmətlər üzrə nəticələrinə əsasən tənzimlənməsi tövsiyə olunur.

2. **Subsidiyaların nəticələrə və təsərrüfat şəraitinə uyğunlaşdırılması.** Subsidiyaların məhsuldarlıq, məhsulun keyfiyyəti və faktiki istehsal göstəriciləri ilə əlaqələndirilməsi, meyarların isə regionların təbii-iqlim şəraiti, su təminatı, torpaq xüsusiyyətləri və strateji məhsullara tələbat nəzərə alınmaqla fərqləndirilməsi faydalı olardı. Meyarların əvvəlcədən açıqlanması və nəticələrin müntəzəm qiymətləndirilməsi dəstəyi daha şəffaf edə bilər.

3. **Ərzaq təhlükəsizliyi üzrə hədəfli tədbirlərin hazırlanması.** Dəstək tədbirlərinin məhsulların özünütəminetmə səviyyəsi, idxaldan asılılığı və təchizat riskləri əsasında fərqləndirilməsi tövsiyə olunur. Strateji məhsullar üzrə istehsal təşviqlərinin saxlama, emal və bazara çıxış tədbirləri ilə əlaqələndirilməsi daha dayanıqlı təchizata kömək edə bilər.

4. **Kiçik və orta təsərrüfatların dəstək imkanlarının genişləndirilməsi.** Kiçik və orta fermerlərin güzəştli maliyyələşməyə, texnikaya, suvarma və məsləhət xidmətlərinə çıxışının asanlaşdırılması, kooperasiya və istehsal zəncirlərində iştirakının təşviqi məqsədəuyğun olardı. Bu tədbirlərin təsərrüfatların ölçüsü və regional ehtiyacları nəzərə alınmaqla qurulması dəstəyin əhatəsini artıra bilər.

5. **Ümumi xidmətlərə və aqrar infrastruktura investisiyanın artırılması.** Aqrar tədqiqat, innovasiya, fermerlərə məsləhət xidməti, toxum keyfiyyətinə nəzarət, fitosanitar və baytarlıq xidmətləri ilə yanaşı suvarma-meliorasiya, kənd yolları, anbar və soyuducu infrastruktura dəstəyin genişləndirilməsi məqsədəuyğun hesab olunur.

6. **Vergi güzəştlərinin şəffaflığı və fiskal səmərəliliyi.** Dövlət dəstəyi daxilində vergi güzəştlərinin payı nəzərə alınaraq, vergi xərclərinin büdcə sənədlərində ayrıca göstərilməsi və onların istehsala, məhsuldarlığa, investisiyalara və büdcə gəlirlərinə təsirinin müntəzəm qiymətləndirilməsi məqsədəuyğun olardı. Bu, güzəştlərin hansı sahələrdə, məhsul qruplarında, regionlarda və təsərrüfat kateqoriyalarında daha səmərəli olduğunu müəyyən etməyə imkan verə bilər.

7. **İqlim və istehsal risklərinin idarə edilməsi.** Quraqlıq, şaxta, dolu və digər iqlim risklərinə qarşı aqrar sığortanın əhatəsinin genişləndirilməsi, risklər nəzərə alınmaqla sığorta haqlarına dövlət dəstəyinin tətbiqi tövsiyə olunur. Suya qənaət edən texnologiyaların, iqlimədavamlı sortların və torpaq münbitliyini qoruyan istehsal üsullarının təşviqi məqsədəuyğun olardı.

8. **Dəstəyin nəticələrinin monitorinqi və tədqiqatı.** Dövlət dəstəyinin aqrar istehsal, istehsalçı qiymətləri, məşğulluq, əsas kapitala investisiyalar və ərzaq təhlükəsizliyi göstəriciləri ilə birlikdə müntəzəm izlənməsi məqsədəuyğun olardı. Dövlət qurumları və tədqiqat təşkilatları tərəfindən əlaqələrin zaman gecikmələri və digər amillər nəzərə alınmaqla araşdırılması siyasət tədbirlərinin nəticələrini daha əsaslı qiymətləndirməyə kömək edə bilər.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc edilmiş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:

1. Cabbarlı L. Avropa Birliyi ölkələrində kənd təsərrüfatı kooperativlərinin fəaliyyətlərinin tənzimlənməsində dövlətin rolu// Kənd Təsərrüfatında Kooperasiyanın Mövcud Vəziyyəti və İnkişaf Perspektivləri mövzusunda Respublika elmi-praktik konfransın materialları, 10 mart 2020-ci il, səh. 74-77
2. Cabbarlı L. Avropa Birliyi (AB) ölkələrində Aqrar Sektorun Vergi Tənzimlənməsi Mexanizmi// Kooperasiya elmi-praktiki jurnal, №2 – 2020 Səh.166-171
3. Cabbarlı L. Aqrar sektorun subsidiyalaşması: dünya təcrübəsi// AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2020, səh. 117-123
4. Cabbarlı L. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında kənd təsərrüfatının mövcud vəziyyəti və inkişaf perspektivləri/ AR Dövlət Statistika Komitəsi, "Statitika xəbərləri" elmi-praktik jurnal, 2021 (2), səh. 35-42
5. Cabbarlı L. İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının inkişaf istiqamətləri/ Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktiki jurnal, 2020 №2, səh. 52-57
6. Cabbarlı L. İqtisadiyyatın dövlət tənzimlənməsində liberal və dirijist baxışlar/ Pandemiyanın Dünya ölkələrinin Sosial-İqtisadi İnkişafına Təsiri Problemləri mövzusunda Beynəlxalq elmi-praktik konfrans materialları, Bakı, 31 May 2021, səh. 123-125
7. Cabbarlı L. Türkdilli dövlətlərdə qadınların məşğulluqda rolu və onun qiymətləndirilməsi/Manisa Celal Bayar Universitesi, Kadın ve aile araştırma ve uygulama merkezi, Uluslararası kadın çalışmaları sempozyumu 12,13 May,2022, səh.11-18
8. Cabbarlı L. Bağımsız Azerbaycan'ın ekonomik kalkınmasında Türkiye'nin rolü: geçmiş ve buğun/İzmir Demokrasi Üniversitesi, III Uluslararası beşeri bilimler kongresi, 4-6 Noyabr,2022, səh.117-126
9. Cabbarlı L. Ölkələrarası münaqişələrin ərzaq təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi/AƏSMA və Manisa Celal Bayar Universitesi, 28,29 Sentyabr 2022 (Beynəlxalq konfrans materialı), səh.126-133

10. Cabbarlı L. Government agencies in the field of sustainable agricultural development in various countries/Amerika jurnalı, SKOPUS, 2022 №2, səh-165-183

11. Cabbarlı L. Measuring the level of state intervention (support) in agricultural production/Scopus Sources, Revista Universidad y Sociedad, №2, Mart-Aprel,2023, səh- 18-26

12. Cabbarlı L. Heydər Əliyev və Kənd Təsərrüfatının İnkişafı/V İqtisadiyyat və İdarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı, 22-25 iyun, 2023, səh 363-373

13. Cabbarlı L. Kənd Təsərrüfatının Dövlət Tənzimlənməsinin Aqrar İstehsalda Rolu və Təsirinin Qiymətləndirilməsi: Dünya Təcrübəsi/ "III Uluslararası İpek Yolu Bilimsel Araşdırmalar Kongresi", 6-8 Mart, 2024, səh 628-639

14. Cabbarlı L. Agriculture İntellectualization: Global Challenges and Effective Regulation / Journal of Propulsion Technology, 2024 №3, səh 3270-3282

15. Cabbarlı L. Labour Migration And Development In Azerbaijan, 1998-2022/ Skopus, 2024, №3, səh 85-102

16. Cabbarlı L. "The impact of government regulation in the agricultural sector on food security". II. International congress on scientific research April 27-May 3, 2026 Rome, İtaly, səh 341-349.

17. "Agriculture intellectualization: global challenges and effective regulation". In 10th ISPEC International Congress on Modern Scientific Research, 18-25 April 2026, Madrid, Spain. Səh. 1211-1230.

18. *"Regulation of agriculture in Azerbaijan: liberal reforms".* 5th Internatıonal Paris congress on agriculture & animal husbandry, June 19-21, 2026, Paris, France.



Dissertasiyanın müdafiəsi 27 noyabr 2026-cı il tarixində saat 11:00 Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (economics.org.az).

Avtoreferat "17 oktyabr 2026" tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.10.2026.
Kağızın formatı: A5
Həcm 40860 işarə
Tiraj: 100